**AUDİT 2025, 4 (50), səh. 143-151.**
**AUDIT 2025, 4 (50), pp. 143-151.**
**АУДИТ 2025, 4 (50), стр. 143-151.**

**DOI: 10.59610/bbu4.2025.4.14**

*Hümbətova Fidan Babək qızı,*
*doktorant,*
*Bakı Biznes Universiteti,*
*ORCID: 0009-0009-4342-3568*
*Email:humbetovafidan28@gmail.com*
*© Hümbətova F.B., 2025*

**UOT: 658.62:378**
**JEL: I23**

# ALİ TƏHSİLDƏ MÜASİR KEYFİYYƏT YANAŞMALARININ İDARƏ OLUNMASI

## X Ü L A S Ə

**Tədqiqatın məqsədi** – ali təhsil sistemində keyfiyyət anlayışını araşdırmaq, müasir yanaşmaları təhlil etmək və onların ölkəmizdə tətbiqi imkanlarını müəyyənləşdirməklə idarə olunmasını əks etdirməkdən ibarətdir.

**Tədqiqatın metodologiyası** – tədqiqatda müqayisəli təhlil, analitik ümumiləşdirmə və sintez metodlarından istifadə olunmuşdur.

**Tədqiqatın tətbiqi əhəmiyyəti** – ali təhsildə keyfiyyət təminatı və idarəetmə mexanizmlərinin təkmilləşdirilməsi ölkənin rəqabətqabiliyyətli insan kapitalının formalaşmasına, əmək bazarının tələblərinə uyğun mütəxəssislərin hazırlanmasına və təhsil müəssisələrinin beynəlxalq reytinqlərdə mövqeyinin yaxşılaşmasına xidmət edir.

**Tədqiqatın nəticələri** – ali təhsildə keyfiyyət yanaşmalarının təkmilləşdirilməsi üçün institusional idarəetmə mexanizmlərinin gücləndirilməsi, rəqəmsallaşdırılmış qiymətləndirmə sistemlərinin tətbiqi, tələbə məmnunluğu meyarlarının nəzərə alınması və davamlı inkişaf prinsiplərinin tədris prosesinə inteqrasiyası ilə bağlı təkliflər irəli sürülmüşdür.

**Tədqiqatın orijinallığı və elmi yeniliyi** – məqalədə ali təhsil müəssisələrində keyfiyyət anlayışının ənənəvi metodlardan fərqli olaraq müasir yanaşmalar əsasında qiymətləndirilməsi, beynəlxalq təcrübələrə uyğun olaraq yeni model və göstəricilərin tətbiqi imkanlarının elmi əsaslandırılması təqdim olunur.

**Açar sözlər:** ali təhsil, keyfiyyət, yanaşma, idarəetmə, ali təhsil müəssisələri.

## G İ R İ Ş

Müasir dövrdə ali təhsil sistemi yalnız bilik ötürən qurum olmaqla kifayətlənmir, həm də cəmiyyətin sosial-iqtisadi inkişafını təmin edən əsas strateji sahələrdən birinə çevrilir. Qloballaşma, rəqəmsallaşma və əmək bazarındakı dəyişikliklər təhsilin keyfiyyətinə olan tələbləri daha da artırır. Bu səbəbdən ali təhsil müəssisələri qarşısında dayanan əsas vəzifə – tələbələrin bilik, bacarıq və səriştələrinin müasir çağırışlara cavab verəcək səviyyədə formalaşdırılmasıdır.

Keyfiyyət anlayışı təhsildə çoxşaxəli xarakter daşıyır. Bu, həm tədrisin məzmunu, həm idarəetmə, həm də qiymətləndirmə, pedaqoji yanaşmalar və tələbə məmnunluğu ilə birbaşa bağlıdır. Müasir yanaşmalar göstərir ki, keyfiyyət yalnız standartların icrası ilə məhdudlaşmır,

AUDİT 2025, 4 (50), səh. 143-151.
AUDIT 2025, 4 (50), pp. 143-151.
АУДИТ 2025, 4 (50), стр. 143-151.

eyni zamanda innovasiyaların tətbiqi, davamlı inkişaf prinsiplərinin inteqrasiyası və beynəlxalq təcrübənin səmərəli istifadəsini də tələb edir.

Keyfiyyətin müvafiq mənası "mükəmməllik dərəcəsi" kimi müəyyən edilir. Lakin bu tərif nisbi xarakter daşıyır. Qiymətləndirmə prosesində son nəticəni istehlakçı müəyyən edir. Müştərinin tələbləri məhsul və ya xidmətdə ölçülə bilən xüsusiyyətlərə çevrilməlidir. Xüsusiyyətlər müəyyən edildikdən sonra onları ölçmək və nəzarət etmək üçün yollar tapılmalıdır. Bu isə məhsul və ya xidmətdə fasiləsiz təkmilləşdirmənin əsasını təşkil edir [9].

Keyfiyyət-şirkətin nüfuzunun artması, gəlirinin çoxalması, çiçəklənməsinin yüksəlməsidir. Buna görədə şirkətin keyfiyyətinin idarə olunması üzrə iş rəhbərdən tutmuş konkret icraçıyadək hər bir heyət üzvü üçün mühüm fəaliyyət növüdür [4].

Azərbaycan ali təhsil sistemində də son illər keyfiyyət təminatı və idarəetmə istiqamətində mühüm addımlar atılır. Lakin sürətlə dəyişən qlobal tendensiyalar bu sahədə yeni yanaşmaların tətbiqini, mövcud mexanizmlərin yenilənməsini və rəqəmsal transformasiya imkanlarının genişləndirilməsini zəruri edir.

Təhsil sistemində keyfiyyətin təmin edilməsi yalnız pedaqoji yanaşmalarla məhdudlaşmır. Bu, həm də idarəetmə, maliyyə dayanıqlığı, infrastruktur imkanları, müəllimlərin peşəkarlıq səviyyəsi və tələbələrin motivasiya dərəcəsi ilə sıx bağlıdır. Müasir dövrdə universitetlər sadəcə bilik ötürən mərkəzlər deyil, həm də elmi araşdırmaların aparıldığı, innovasiyaların yaradıldığı və iqtisadi inkişafı dəstəkləyən strateji institutlara çevrilmişdir. Buna görə də keyfiyyət məsələsi həm milli, həm də beynəlxalq səviyyədə prioritet mövzu kimi diqqət mərkəzindədir.

Ali təhsildə keyfiyyət yanaşmaları ənənəvi "tədris keyfiyyəti" çərçivəsindən çıxaraq, daha çox nəticəyönümlü idarəetmə və yanaşmalara əsaslanır. Bu yanaşmaya görə əsas meyar tələbənin əldə etdiyi nəticələrdir – yəni, məzunun bilik, bacarıq və kompetensiyalarının əmək bazarının tələblərinə uyğunluğu. Burada yalnız biliklərin ötürülməsi deyil, həm də tənqidi düşüncə, yaradıcılıq, komandada işləmək, liderlik, idarəetmə və rəqəmsal bacarıqların inkişaf etdirilməsi mühüm rol oynayır.

**Ali təhsildə keyfiyyət yanaşmaları**

Ali təhsildə yanaşmalar tədris prosesinin təşkili, təhsil keyfiyyətinin təmin olunması və idarəetmə mexanizmlərinin düzgün qurulmasına əsaslanır. Bu yanaşmalar ali məktəblərin fəaliyyət istiqamətlərini müəyyənləşdirir və tələbələrin bilik, bacarıq və səriştələrinin formalaşdırılmasına xidmət edir.

Yanaşmaların mahiyyəti ondan ibarətdir ki, ali təhsil yalnız auditoriya dərsləri ilə məhdudlaşmır, eyni zamanda idarəetmə və təşkilati mexanizmlərin düzgün işləməsinə bağlı olur. Universitetlərin idarəetmə strukturu, qərarların qəbul edilmə forması və resursların bölüşdürülməsi tədrisin keyfiyyətinə birbaşa təsir göstərir.

Ali təhsil yanaşmalarında həm pedaqoji üsullar, həm də idarəetmə prinsipləri birlikdə nəzərə alınır. Tədris proqramlarının hazırlanması, qiymətləndirmə meyarlarının müəyyənləşdirilməsi və tələbələrin sosial-mədəni fəaliyyətlərinin təşkili yalnız effektiv idarəetmə mühiti formalaşdırıldıqda daha uğurlu nəticələr verir.

Eyni zamanda, ali təhsil müəssisələrinin idarəetmə yanaşmaları onların cəmiyyət qarşısında daşıdıqları missiya ilə sıx bağlıdır. İdarəetmədə şəffaflıq, məsuliyyətlilik və hesabatlılıq təmin olunduqda, həm professor-müəllim heyəti, həm də tələbələr təhsil prosesində daha aktiv və motivasiyalı iştirak edirlər.

**AUDİT 2025, 4 (50), səh. 143-151.**
**AUDIT 2025, 4 (50), pp. 143-151.**
**АУДИТ 2025, 4 (50), стр. 143-151.**

Ali təhsildə yanaşmalar sadəcə tədrisin metodları ilə məhdudlaşmır, həm də idarəetmənin keyfiyyətli qurulmasını tələb edir. Təhsil müəssisələrində düzgün idarəetmə sisteminin mövcudluğu, ali təhsilin əsas məqsədlərinə çatmaq üçün ən vacib amillərdən biri hesab olunur.

*Cədvəl 1.*

**Ali təhsildə keyfiyyət yanaşmalarının idarə olunmasının təsnifatı**

| **Daxili keyfiyyət təminatı** ↓ Universitet daxilində tələbə sorğuları, müəllimlərin dərs yükü və pedaqoji fəaliyyətinin monitorinqi, fakültələrdə keyfiyyət komissiyalarının işi. | **Xarici keyfiyyət təminatı** ↓ Azərbaycan Respublikasında Təhsil Keyfiyyəti Təminatı Agentliyi (TKTA) tərəfindən aparılan akkreditasiya prosesi və ya beynəlxalq ABET, ISO, EQAR akkreditasiyaları. |
|---|---|
| **Akkreditasiya və sertifikatlaşdırma** ↓ Ali təhsil müəssisəsinin və ya onun müxtəlif tədris proqramlarının müəyyən müddətə (məsələn, 3 və ya 5 il) akkreditasiyadan keçməsi və keyfiyyət standartlarına uyğun olaraq sertifikatla təsdiqlənməsi. | **Strateji və idarəetmə yönümlü keyfiyyət təminatı** ↓ Universitetin 3–5 illik inkişaf strategiyasının hazırlanması və həmin dövr ərzində keyfiyyət təminatı üzrə konkret tədbirlərin həyata keçirilməsi. |

***Mənbə: Müəllif tərəfindən tərtib edilmişdir.***

Ali təhsildə keyfiyyət yanaşmaları yalnız daxili və xarici təminat mexanizmləri ilə məhdudlaşmır. Bu sahədə akkreditasiya və sertifikatlaşdırma prosedurları ali məktəblərin fəaliyyətinə rəsmi hüquqi status qazandırır və onların beynəlxalq etibarlılığını artırır. Eyni zamanda strateji idarəetmə yanaşmaları universitetlərin uzunmüddətli inkişafını təmin edən əsas istiqamətlərdən biri kimi çıxış edir.

Keyfiyyətin idarə olunması prosesində pedaqoji fəaliyyətlə yanaşı, idarəetmənin səmərəliliyi də ön plana çəkilir. Universitetlərdə şəffaf qərarvermə, resursların düzgün bölüşdürülməsi və hesabatlı idarəetmə prinsiplərinin tətbiqi ali təhsilin dayanıqlı inkişafı üçün mühüm şərtlərdən hesab olunur. Təhsil müəssisələri yalnız dərs prosesini təşkil etməklə kifayətlənməməli, həm də sosial-mədəni fəaliyyətləri, elmi-tədqiqat işlərini və innovasiya yönümlü təşəbbüsləri idarəetmə çərçivəsində keyfiyyətli şəkildə həyata keçirməlidirlər.

Nəticə etibarilə, ali təhsildə keyfiyyət yanaşmalarının idarə olunması çoxşaxəli xarakter daşıyır və həm daxili, həm də xarici mexanizmlərin uzlaşdırılmış şəkildə işləməsini tələb edir. Bu yanaşmaların hər biri təhsil sistemində keyfiyyətin yüksəldilməsinə, tələbələrin bilik və bacarıqlarının inkişafına və universitetlərin cəmiyyət qarşısında daşıdıqları missiyanın uğurla yerinə yetirilməsinə xidmət edir.

**Ali təhsildə müasir keyfiyyət yanaşmaları və idarə olunması**

Ali təhsildə müasir keyfiyyət yanaşmaları təhsil müəssisələrinin fəaliyyətinin bütün sahələrini əhatə edir. Bu yanaşmalarda əsas məqsəd yalnız tədrisin səviyyəsini yüksəltmək deyil,

AUDİT 2025, 4 (50), səh. 143-151.
AUDIT 2025, 4 (50), pp. 143-151.
АУДИТ 2025, 4 (50), стр. 143-151.

həm də universitetlərin idarəetmə strukturunu təkmilləşdirmək, maliyyə dayanıqlığını təmin etmək və cəmiyyət qarşısında məsuliyyətini artırmaqdır.

Müasir keyfiyyət yanaşmaları çərçivəsində qiymətləndirmə meyarları da dəyişmişdir. Əgər əvvəlcə tələbələrin biliyi yalnız imtahan nəticələri ilə ölçülürdüsə, bu gün onların layihə işlərində iştirakı, tədqiqat bacarıqları, ictimai fəallığı və sosial təşəbbüslərdə rolu da əsas göstəricilər kimi nəzərə alınır.

Avropa ali təhsil məkanında keyfiyyət təminatının təşkili və inkişafı üçün əsas çərçivəni ESG prinsipləri müəyyən edir. Bu prinsiplər ali təhsil müəssisələrinin fəaliyyətində keyfiyyətin təmin olunması prosesini sistemli şəkildə yönləndirir və müxtəlif tərəflərin, o cümlədən tələbələrin, akademik personalın və cəmiyyətin gözləntilərini nəzərə alır. ESG yanaşması, həmçinin institusional idarəetmə mexanizmlərinin təkmilləşdirilməsini, keyfiyyət mədəniyyətinin inkişafını və ali təhsil sistemlərində davamlı keyfiyyət təminatını təşviq edir. Aşağıda Avropa ali təhsil məkanında keyfiyyət təminatının əsasını təşkil edən dörd prinsip təqdim olunur:

– ali təhsil müəssisələri göstərdikləri təhsil xidmətlərin keyfiyyət təminatına birbaşa cavabdehlik daşıyır;

– keyfiyyət təminatı müxtəlif ali təhsil sistemləri, müəssisələr, proqramlar və tələbələrlə əlaqədar müxtəlif məsələlərlə məşğul olur;

– keyfiyyət təminatı sistemi keyfiyyət mədəniyyətinin inkişaf etdirilməsini dəstəkləyir;

– keyfiyyət təminatı tələbələrin, digər maraqlı tərəflərin və cəmiyyətin ehtiyaclarını və təhsildən gözləntilərini nəzərə alır [1].

Keyfiyyət anlayışı, həmçinin müəllimlərin fəaliyyətinə də şamil olunur. Müasir ali təhsil sistemində müəllimlərin yalnız dərs deməsi kifayət etmir, onların elmi-tədqiqat işlərində iştirakı, innovativ metodlardan istifadə etməsi və beynəlxalq əməkdaşlıqlarda aktivliyi də keyfiyyət göstəricisi hesab olunur.

Bundan başqa, ali təhsildə müasir yanaşmaların mühüm istiqaməti rəqəmsallaşmadır. Elektron tədris resursları, onlayn imtahan sistemləri, virtual kitabxanalar və süni intellekt əsaslı analitik vasitələr keyfiyyətin idarə olunmasında əsas vasitələrdən biri kimi çıxış edir. Bu, həm tədris prosesini daha çevik edir, həm də tələbələrin fərdi öyrənmə imkanlarını genişləndirir.

Müasir keyfiyyət yanaşmaları universitetlərin sosial-mədəni mühitini də əhatə edir. Tələbələrin özünüidarəetmə qurumlarında iştirakı, könüllülük fəaliyyətləri, mədəni tədbirlərdə və startap layihələrində rolu ali təhsil müəssisələrinin keyfiyyətinə əlavə dəyər qazandırır.

Nəticə olaraq, ali təhsildə müasir keyfiyyət yanaşmaları yalnız dərs prosesini deyil, həm də idarəetməni, müəllim və tələbə fəaliyyətini, sosial məsuliyyəti, elmi-tədqiqat işlərini və beynəlxalq əməkdaşlığı özündə birləşdirir. Bu yanaşmaların əsas məqsədi isə rəqabətqabiliyyətli, yaradıcı və davamlı inkişafı dəstəkləyən insan kapitalının formalaşdırılmasıdır.

Ali təhsildə müasir keyfiyyət yanaşmalarının idarə olunması kompleks və sistemli yanaşma tələb edir. Bu proses universitetlərin tədris, tədqiqat və idarəetmə fəaliyyətlərini vahid çərçivədə əlaqələndirərək keyfiyyətin davamlı inkişafını təmin edir. Keyfiyyətin idarə olunması üçün universitet daxilində xüsusi bölmələr və komissiyalar fəaliyyət göstərir, onlar mütəmadi olaraq monitorinq aparır və hesabatlar hazırlayırlar. Bu idarəetmə yalnız gündəlik nəzarətlə məhdudlaşmır, həm də uzunmüddətli inkişaf strategiyalarının hazırlanmasını əhatə edir. Strateji planlar vasitəsilə universitetlər keyfiyyət hədəflərini müəyyənləşdirir və onların icrası üçün konkret tədbirlər həyata keçirirlər.

**AUDİT 2025, 4 (50), səh. 143-151.**
**AUDIT 2025, 4 (50), pp. 143-151.**
**АУДИТ 2025, 4 (50), стр. 143-151.**

İdarəetmə mexanizmlərində monitorinq və qiymətləndirmə xüsusi əhəmiyyət daşıyır. Burada tələbələrin nailiyyətləri, müəllimlərin pedaqoji fəaliyyəti və tədris proqramlarının effektivliyi mütəmadi şəkildə ölçülür. Eyni zamanda, ali təhsil müəssisələri xarici qurumların nəzarətindən də keçir. Dövlət agentlikləri və beynəlxalq akkreditasiya təşkilatları universitetlərin keyfiyyət standartlarına uyğunluğunu təsdiq edərək onların fəaliyyətini rəsmiləşdirirlər.

Müasir dövrdə keyfiyyətin idarə olunması rəqəmsal texnologiyaların imkanlarından geniş istifadə edir. Elektron idarəetmə sistemləri, onlayn qiymətləndirmə platformaları və analitik proqramlar təhsildə şəffaflığı artırır və qərarların daha əsaslı şəkildə qəbul edilməsinə şərait yaradır. Keyfiyyətin idarə olunmasının əsas dayaqlarından biri də insan resurslarıdır. Müəllimlərin peşəkar inkişafı, tələbələrin elmi və sosial fəaliyyətlərdə fəallığı və ümumilikdə universitet mühitinin motivasiyaedici olması keyfiyyətin yüksəldilməsinə birbaşa təsir göstərir.

*Sxem 1.*

**Ali təhsildə müasir keyfiyyət yanaşmaları**




***Mənbə: Müəllif tərəfindən tərtib edilmişdir.***

**Tələbəyönümlü yanaşma -** bu yanaşmada ali təhsilin əsas məqsədi tələbənin fərdi inkişafı və onun potensialının reallaşdırılmasıdır. Universitetlər yalnız bilik ötürən deyil, tələbənin maraqlarını, yaradıcılığını və gələcək karyerasını dəstəkləyən bir mühit formalaşdırır. Tədris planları çevik olur, tələbə fənn seçimi edə bilir, fərdiləşdirilmiş tədris imkanları yaranır. Bu yanaşma nəticəsində tələbə passiv dinləyici yox, tədris prosesinin fəal iştirakçısına çevrilir.

**Nəticəyönümlü yanaşma -** burada diqqət prosesdən çox, əldə edilən nəticələrə yönəlir. Yəni ali təhsil müəssisəsi tələbənin hansı bilik, bacarıq və səriştələrlə məzun olacağına cavabdeh olur. Proqramlar yalnız nəzəri məlumatı deyil, real həyatda tətbiq oluna bilən kompetensiyaları formalaşdırmağa xidmət edir. Bu modeldə təhsil nəticələri əvvəlcədən müəyyənləşdirilir, qiymətləndirmə sistemi də həmin nəticələrə uyğun qurulur.

**İnnovasiya yönümlü rəqəmsal yanaşma -** müasir dövrdə rəqəmsallaşma ali təhsilin ayrılmaz hissəsinə çevrilib. Bu yanaşma tədris prosesində süni intellekt, böyük verilənlər (big data), onlayn platformalar və virtual laboratoriyalardan istifadəyə əsaslanır. Rəqəmsal yanaşma həm tədrisin çevikliyini artırır, həm də tələbələrə istənilən vaxt, istənilən məkanda bilik əldə etmək imkanı yaradır. İnnovativ texnologiyalar sayəsində interaktiv dərslər, simulyasiya əsaslı təlim və hibrid öyrənmə modelləri reallaşdırılır.

AUDİT 2025, 4 (50), səh. 143-151.
AUDIT 2025, 4 (50), pp. 143-151.
АУДИТ 2025, 4 (50), стр. 143-151.

**İnklüziv yanaşma -** bu yanaşma hər bir tələbənin sosial vəziyyətindən, fiziki imkanlarından və digər fərqlərindən asılı olmayaraq bərabər təhsil hüququnu təmin edir. Universitetlərdə əlilliyi olan şəxslər üçün xüsusi infrastruktur yaradılır, gender bərabərliyi qorunur, sosial həssas qrupların təhsilə çıxışı asanlaşdırılır. İnklüzivlik yalnız sosial ədalət deyil, həm də ali təhsilin keyfiyyət göstəricisi kimi qəbul olunur. Çünki müxtəliflik daha zəngin öyrənmə mühiti formalaşdırır.

**Tədqiqat yönümlü yanaşma -** bu yanaşmada təhsil və elm bir-birindən ayrılmır. Universitetlər tələbələri yalnız mövcud biliklərlə tanış etmir, həm də onları yeni biliklərin yaradılmasına cəlb edir. Tələbələr startap layihələrdə, elmi araşdırmalarda, laboratoriyalarda iştirak edir, nəticələrini konfranslarda təqdim edə bilirlər. Tədqiqat yönümlü yanaşma tələbələrdə tənqidi düşüncə, problem həll etmə və yaradıcılıq bacarıqlarını inkişaf etdirir.

**Əmək bazarına inteqrasiyalı yanaşma** - ali təhsilin keyfiyyəti yalnız diplom təqdim etməklə ölçülmür. Burada əsas göstərici məzunların əmək bazarında necə uğur qazanmasıdır. Bu yanaşma universitet ilə iş dünyası arasında sıx əməkdaşlığa əsaslanır: işəgötürənlər kurikulumların hazırlanmasına cəlb olunur, istehsalat təcrübələri təşkil edilir, məzunların məşğulluq göstəriciləri izlənir. Nəticədə tələbələr yalnız nəzəri biliklərlə deyil, həm də praktiki bacarıqlarla əmək bazarına daxil olurlar.

Ali təhsildə müasir keyfiyyət yanaşmaları bir-birini tamamlayan və ali məktəblərin fəaliyyət istiqamətlərini müəyyən edən əsas prinsip və mexanizmlər toplusudur. Tələbəyönümlü yanaşma tələbənin tədris prosesinin mərkəzində dayanmasını, onun fərdi bacarıq və maraqlarının nəzərə alınmasını təmin edir, beləliklə ali təhsil artıq yalnız müəllimin diktəsi ilə deyil, tələbənin fəallığı və maraqları ilə formalaşır. Nəticəyönümlü yanaşma isə tədris prosesindən çox, əldə olunan nəticələrin yəni məzunun hansı bilik, səriştə və peşə bacarıqlarına sahib olmasının ölçülməsinə yönəlir və bu da təhsil proqramlarının əmək bazarının tələblərinə cavab verməsini zəruri edir.

Digər tərəfdən, innovasiya yönümlü rəqəmsal yanaşma müasir texnologiyaların, rəqəmsal platformaların və süni intellektin tədrisə tətbiqi ilə ali təhsil müəssisələrində çevik, interaktiv və sərhədsiz öyrənmə imkanları yaradır, tələbələrə istənilən vaxt və məkanda təhsil almağa şərait yaradır. İnklüziv yanaşma isə bütün tələbələr üçün bərabər imkanların yaradılmasını nəzərdə tutur, sosial həssas qrupların və fiziki məhdudiyyətli gənclərin təhsildən kənarda qalmamasını təmin edir, bu da ali təhsildə sosial ədalət və müxtəlifliyin əsas göstəricisinə çevrilir.

Tədqiqat yönümlü yanaşma ali məktəbləri yalnız bilik ötürən deyil, həm də yeni bilik yaradan elm mərkəzlərinə çevirir; tələbələrin startaplarda, elmi layihələrdə və innovativ tədqiqatlarda iştirakını təşviq edir, nəticədə onların tənqidi düşünmə və yaradıcılıq bacarıqları inkişaf etdirilir. Əmək bazarına inteqrasiyalı yanaşma isə universitetlərlə iş dünyası arasında birbaşa əlaqəni gücləndirir, istehsalat təcrübələrini, karyera mərkəzlərinin fəaliyyətini və işəgötürənlərin kurikulumlara təsirini önə çəkir ki, məzunlar real bazar şəraitinə uyğun bilik və bacarıqlarla təchiz olunsunlar.

Beləliklə, bu yanaşmaların sintezi ali təhsildə keyfiyyətin yalnız nəzəri müstəvidə deyil, həm də praktik, sosial və innovativ istiqamətlərdə təmin olunmasına xidmət edir və ali məktəblərin həm milli, həm də beynəlxalq rəqabətliliyini gücləndirir.

AUDİT 2025, 4 (50), səh. 143-151.
AUDIT 2025, 4 (50), pp. 143-151.
АУДИТ 2025, 4 (50), стр. 143-151.

## Y E K U N

Ali təhsildə müasir keyfiyyət yanaşmaları müxtəlif istiqamətləri ilə bir-birini tamamlayaraq, təhsil sistemində yeni keyfiyyət mərhələsinin formalaşmasına xidmət edir. Tələbəyönümlü yanaşma tədris prosesində tələbəni mərkəzə çəkərək onun fərdi maraqlarını, bacarıqlarını və karyera planlarını nəzərə alır. Nəticəyönümlü yanaşma təhsil müəssisəsinin yalnız dərs keçmək deyil, konkret nəticə yəni səriştəli və peşəkar məzun yetişdirmək öhdəliyini ön plana çıxarır. İnnovasiya yönümlü rəqəmsal yanaşma texnologiyaların imkanlarını ali təhsilə gətirərək çevik və sərhədsiz öyrənmə modelini formalaşdırır, inklüziv yanaşma isə hər bir tələbə üçün bərabər imkanlar yaradaraq təhsildə sosial ədalət prinsipini möhkəmləndirir. Bununla yanaşı, tədqiqat yönümlü yanaşma universitetləri elmi yaradıcılığın və yeni bilik istehsalının mərkəzinə çevirir, əmək bazarına inteqrasiyalı yanaşma isə məzunların iş dünyasında rəqabət qabiliyyətini artırır və təhsillə iqtisadiyyat arasında körpü rolunu oynayır.

Bütün bu yanaşmaların tətbiqi ali təhsil sistemində keyfiyyətin yüksəldilməsinə, tələbələrin inkişafına və ölkənin sosial-iqtisadi tərəqqisinə mühüm töhfə verir. Lakin nəzərə almaq lazımdır ki, müasir yanaşmalar yalnız konseptual çərçivədə qalmamalı, onların reallaşdırılması üçün səmərəli idarəetmə mexanizmləri də mövcud olmalıdır. Keyfiyyətin idarə olunması tədris prosesinin planlaşdırılmasından tutmuş onun monitorinqi, qiymətləndirilməsi və nəticələrin davamlı izlənməsinə qədər çoxşaxəli bir sistemi əhatə edir. Başqa sözlə, müasir keyfiyyət yanaşmaları yalnız düzgün idarə olunduqda real nəticə verir və ali təhsil müəssisələrinin rəqabət qabiliyyətini təmin edir.

## İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT SİYAHISI:

1. Avropa ali təhsil məkanında keyfiyyət təminatı üzrə standartlar və təlimatlar (ESG) 2015, 23 s.
2. Beynəlxalq standart ISO 9000. "Keyfiyyəti idarəetmə sistemləri-Əsas müddəalar və lüğət”. Dördüncü redaksiya, 2015, 60 s.
3. Hüseynova F. “Keyfiyyət təminatı sistemin həyata keçirilməsi”. Modul dərs vəsaiti Bakı, 2020, 96 s.
4. Mehdiyev M.İ. “Keyfiyyətin idarə edilməsi”. Dərslik. Çaşıoğlu, 2008, 208 s.
5. Məmmədova E., Mirheydərova A. “Keyfiyyətə nəzarət”. Dərslik. Bakı, 2017, 393 s.
6. https://www.merriam-webster.com/dictionary/qualit
7. https://az.wikipedia.org/wiki/Keyfiyy%C9%99t
8. https://teachers.institute/institutional-management/educational-quality-key-indicators/?utm_source=chatgpt.com
9. https://assets.cambridge.org/97805215/15221/excerpt/9780521515221_excerpt.pdf

**AUDİT 2025, 4 (50), səh. 143-151.**
**AUDIT 2025, 4 (50), pp. 143-151.**
**АУДИТ 2025, 4 (50), стр. 143-151.**

*Fidan Babek Humbatova,*
*Ph.D. Student,*
*Baku Business University,*
*ORCID: 0009-0009-4342-3568*
*Email: humbetovafidan28@gmail.com*
*© F.B. Humbatova, 2025*

# MANAGEMENT OF MODERN QUALITY APPROACHES IN HIGHER EDUCATION

## A B S T R A C T

**The purpose of the research** is to examine the concept of quality in the higher education system, analyze modern approaches, and reflect their management by identifying the possibilities of their application in our country.

**The methodology of the research** – comparative analysis, analytical generalization, and synthesis methods were used in the study.

**The practical importance of the research** – improving quality assurance and management mechanisms in higher education contributes to the formation of the country's competitive human capital, the training of specialists in accordance with labor market requirements, and the enhancement of higher education institutions' positions in international rankings.

**The results of the research** – proposals have been made to improve quality approaches in higher education through strengthening institutional management mechanisms, implementing digitalized assessment systems, taking student satisfaction criteria into account, and integrating sustainable development principles into the educational process.

**The originality and scientific novelty of the research** – the article presents an evaluation of the concept of quality in higher education institutions based on modern approaches, different from traditional methods, and scientifically substantiates the possibilities of applying new models and indicators in line with international practices.

**Keywords:** higher education, quality, approach, management, higher education institutions.

**AUDİT 2025, 4 (50), səh. 143-151.**
**AUDIT 2025, 4 (50), pp. 143-151.**
**АУДИТ 2025, 4 (50), стр. 143-151.**

*Хумбетова Фидан Бабек кызы,*
*докторант,*
*Бакинский Университет Бизнеса,*
*ORCID: 0009-0009-4342-3568*
*Email: humbetovafidan28@gmail.com*
*© Хумбетова Ф.Б., 2025*

# УПРАВЛЕНИЕ СОВРЕМЕННЫМИ ПОДХОДАМИ К КАЧЕСТВУ В ВЫСШЕМ ОБРАЗОВАНИИ

## Р Е З Ю М Е

**Цель исследования** заключается в изучении понятия качества в системе высшего образования, анализе современных подходов и отражении их управления путем определения возможностей применения в нашей стране.

**Методология исследования** – в исследовании использованы методы сравнительного анализа, аналитической обобщенности и синтеза.

**Практическая значимость исследования** – совершенствование механизмов обеспечения качества и управления в высшем образовании способствует формированию конкурентоспособного человеческого капитала страны, подготовке специалистов в соответствии с требованиями рынка труда и улучшению позиций образовательных учреждений в международных рейтингах.

**Результаты исследования** – предложены рекомендации по совершенствованию подходов к качеству в высшем образовании через укрепление институциональных механизмов управления, внедрение цифровых систем оценки, учет критериев удовлетворенности студентов и интеграцию принципов устойчивого развития в образовательный процесс.

**Оригинальность и научная новизна исследования** – в статье представлен анализ понятия качества в высших учебных заведениях на основе современных подходов, отличающихся от традиционных методов, а также научно обоснованы возможности применения новых моделей и показателей в соответствии с международной практикой.

**Ключевые слова:** высшее образование, качество, подход, управление, высшие учебные заведения.

*Məqalə redaksiyaya daxil olmuşdur: 22.07.2025*
*Təkrar işlənməyə göndərilmişdir: 10.09.2025*
*Çapa qəbul olunmuşdur: 04.11.2025*

*Дата поступления статьи в редакцию: 22.07.2025*
*Отправлено на повторную обработку: 10.09.2025*
*Принято к печати: 04.11.2025*

*The date of the admission of the article to the editorial office: 22.07.2025*
*Send for reprocessing: 10.09.2025*
*Accepted for publication: 04.11.2025*